***Layihənin istiqaməti: Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

# 27 illik torpaq həsrəti sona çatdı

## Cəbrayıl sakini: "Prezidentin televiziyadan Şıxalıağalı sözünü deməsini gözləyirdim"

***Artıq 12 gündür ki, Azərbaycan ordusu Erməni Silahlı Qüvvələri tərəfindən işğal olunmuş torpaqların azad edilməsi uğrunda haqq savaşına başlayıb. Qısa müddətdə rəşadətli Azərbaycan ordusu bir şəhər, bir neçə zirvə və yüksəklik daxil olmaqla xeyli sayda kəndlərimizi erməni tapdağından azad edib. Cəbrayıl şəhərinin və kəndlərinin işğaldan azad edilməsi bu torpaqda dünyaya göz açan, böyüyüb boya-başa çatan cəbrayıllıların böyük sevincinə səbəb olub. Bu günlərdə cəbrayıllılar dədə-baba torpaqlarının geri qaytarılmasının sevincini yaşayırlar.***

Ramana kəndində, 31 saylı yataqxana demək olar ki, başdan-başa Cəbrayıldan məcburi-köçkün düşənlərin məskunlaşdığı yerdir. 27 ildir ki, bu yataqxanaya sığınan məcburi köçkünlər həsrətin sona çatdığını, nəhayət ki, öz torpaqlarına köç üçün hazırlaşdıqlarını söyləyirlər. Bu yataqxanada həmsöhbət olduğumuz məcburi köçkünlər Azərbaycanın torpaqlarının işğaldan azad olunacağı günü səbirsizliklə gözlədiklərini, bu günün uzaqda olmadığına sidq ürəkdən inandıqlarını söyləyirlər. O inamla 27 ildir ki, yaşayanlardan biri də, Şirinova Kamilə Cümşüd qızıdır. Cəbrayılın Qaracalı kənd sakini Kamilə ana 1993-cü ildən bu yataqxanada məskunlaşsa da, ürəyi hər zaman Cəbrayıla, Qaracalıya qayıtmaq eşqi ilə çırpınıb: "Gərək insanda ümid ölməyə. Bu illərdə bizi burada yaşadan elə o torpaqlara qayıtmaq ümidimiz, inamımız olub. Bəlkə də içimizdə o inam olmasaydı biz bu gördüyünüz dar, nəmişlik qoxuyan yataqxanada yaşaya bilməzdik. Məni illərdir yaşadan o torpağa qayıtmaq inamıdır. Həmişə bu çətinliklərin müvəqqəti olduğunu düşünmüşəm. Prezidentimiz televiziyadan Cəbrayılın işğaldan azad olunduğunu elan edəndə öz-özümə dedim ki, artıq o gün gəlib çatıb. Biz 1993-cü ildən buradayıq. Oğlum Murovda döyüşür. Canımız bu torpağa fədadır. Həmişə oğlum deyir ki, ana Cəbrayılı geri alaq, səni kəndinə aparacağam. Bu sözləri oğlum hələ uşaq vaxtından deyirdi. Amma onun uşaq olmasına rəğmən mən onun dediklərinə inanırdım. Biz hamımız öz yurd-yuvamıza bağlı insanlarıq. İndi o günü gözləyirəm ki, prezidentimiz Qaracalının işğaldan azad olunduğunu elan etsin. O günə qurban demişəm".

Kamilə Şirinova deyir ki, işğal altındakı torpaqların Azərbaycana aid olduğunu dünyada bilir: "Biz illərdir ki, Avropaya o torpaqların, Qarabağın bizim torpaq olduğunu isbatlamağa çalışırıq. Bunun üçün bütün beynəlxalq təşkilatlara müraciətlər edirik, sənədlər təqdim edirik. Bütün bunlarla Qarabağın bizim torpaq olduğunu sübut etməyə çalışırıq. Amma bunun sübutu üçün nə sənədə, nədəki müraciətə ehtiyac var. Bircə dəfə beynəlxalq qurumlar Cəbrayıla, Qubadlıya, Zəngilana getsinlər. Oradakı kəndləri gəzsinlər. Biz çıxandan o kəndlər xaraba qalıb. Ermənilər özləri orada yuva qurub yaşamağa ürək eləmir. Çünki, bilirlər ki, o torpaqlar bizimdir, gec-tez biz evimizə qayıdacağıq. O torpaqlarda bizim babalarımızın, şəhidlərimizin məzarları var. Onları ziyarət etməyənə qədər biz rahatlıq tapa bilmərik"



Cəbrayıl rayonunun Şıxalıağalı kənd sakini Xudiyeva Səadət isə üç gün öncə eşidib doğma kəndinin işğaldan azad olma xəbərini. Deyir ki, gözü qulağı televiziyadaymış: "Prezidentin televiziyadan Şıxalıağalı sözünü deməsini gözləyirdim. Şıxalıağalının işğaldan azad edildiyi xəbərini eşidəndə elə bilin ki, qardaşımın torpağını ziyarət edib qayıtdım. Mən 30 yaşımda məcburi şəkildə tərk etmişəm o torpağı. Qardaşım Qarabağda gedən döyüşlərdə şəhid olub. Xalamoğlu, xalamnəvəsi şəhid olub. Üç şəhidimiz var. Bizim o torpaqlara qayıtmağa haqqımız var. Çünki o torpaqlar bizə babalarımızdan əmanətdir. Bizim doğmalarımızın ruhu dolaşır o torpaqda. Onların məzarı qəribsəyib dualarımız üçün. Mən dizi üstə gedəcəm evimizə. Əhd etmişəm ki, kəndimiz işğaldan azad olunsun, dizin-dizin sürünüb gedib tapacam evimizi. Evimiz qalmasa yurd yerimizi. Oranın qara daşı da mənə qəbuldur".



Burada bizə məlumat verilir ki, Cəbrayılın işğalı əhaliyə baha başa gəlib. Düşmən rayonun 1 şəhərini, 4 qəsəbəsini və 92 kəndini talan edərək yandırıb, 132-dən çox yerli əhəmiyyətli tarixi, maddi-mədəni və dini abidəsini dağıdıb. Bununla bərabər, ərazidəki 13147 fərdi yaşayış evi, 886 ictimai bina, 8 sənaye, 44 kənd təsərrüfatı, 149 mədəniyyət, 91 təhsil, 1 məktəbdənkənar müəssisə, 3 uşaq musiqi məktəbi, 1 texniki peşə məktəbi, 77 səhiyyə, 96 məişət xidməti obyekti, 65 rabitə, 56 körpü, 28 su anbarı, 32 nasos stansiyası, 65 kilometr qaz kəməri, 11 tikinti müəssisəsi düşmənin əlinə keçib. Əhalinin şəxsi təsərrüfatlarında olmuş 26 min başdan çox iribuynuzlu, 53224 başdan çox xırdabuynuzlu heyvan qarət edilibdir.1988-ci ildən 1990-cı ilədək erməni qəsbkarlarına qarşı mərdliklə döyüşən Cəbrayıl sakinlərinin 400-ə yaxını şəhid olub. Onların 13-ü yetkinlik yaşına çatmayanlar idi. Döyüşlər zamanı 8 uşaq müharibədə hər iki valideynini, 207 uşaq isə valideynlərindən birini itirib. Torpaqların müdafiəsində qəhrəmanlıq göstərmiş rayon sakinlərindən 6 nəfər Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülüb. İşğal nəticəsində rayonun 52604 (hazırda 80032) sakini ata-baba yurdlarından didərgin düşərək məcburi köçkün kimi ölkənin 54 şəhər və rayonunda müvəqqəti məskunlaşıb.

Birinci Qarabağ müharibəsinin gedişində Cəbrayıl əhalisi uzun müddət erməni işğalçılarına qarşı rəşadətlə vuruşub. İşğala qədər rayonun ərazisi tam mühafizə olunmuş, üstəlik, qonşu Xocavənd rayonunun erməni işğalında olan bir sıra kəndləri polis işçilərinin və yerli əhalinin iştirakı ilə Silahlı Qüvvələr tərəfindən azad olunub. Ümumilikdə, Xocavənd rayonunun Cəbrayıl rayonu ilə qonşu olan 15 kəndi düşməndən təmizlənib, onların bəzilərinə Ermənistan ərazisindən deportasiya edilmiş soydaşlarımız yerləşdirilib.Amma məlum olduğu kimi, Gəncə qiyamı nəticəsində Azərbaycan Ordusunun döyüş qabiliyyəti sarsılıb, bunun nəticəsində Ağdam rayonu işğal olunub, Cəbrayıl və Füzuli rayonlarının işğalı üçün zəmin yaranıb. 1993-cü ilin avqust ayı ərzində Cəbrayıl rayonunun ərazisində fövqəladə vəziyyət elan edilib, erməni təcavüzkarları 1992-ci ilin yayında işğaldan azad edilmiş Xocavənd rayonunun kəndlərini yenidən zəbt edərək Cəbrayıl şəhərinə yaxınlaşmışdı. Avqust ayı ərzində Cəbrayıl şəhəri güclü atəşə tutulub, düşmənin atdığı "Qrad" mərmiləri şəhərin bir çox yerlərinə zərər vurub, əhali arasında ölənlər olub.Avqustun 18-də isə erməni işğalçıları şəhəri mühasirəyə alıblar. Özünümüdafiə qüvvələrinin şiddətli müqavimətinə baxmayaraq, Cəbrayıl şəhəri avqustun 23-də işğal olunub.Cəbrayılın qurtuluş gününü görmək üçün nə az, nə çox, düz 27 il gözləmək lazım gəldi. Bu, bir igidin ömrüdür. Bu günlər şanlı Azərbaycan Ordusu ölkəmizin tarixində şərəfli səhifə yazır. Uzun illər düşmən tapdağı altında qalmış yurd yerlərimiz Silahlı Qüvvələrimizin zəfər yürüşünün gedişində azadlığa qovuşur. Erməni silahlı birləşmələrinin cəbhə xəttində davamlı olaraq törətdiyi təxribatlara son qoymaq məqsədilə qəhrəman ordumuz ötən ayın 27-də bütün cəbhə boyu əkshücum əməliyyatına start verib, işğal altında olan yaşayış məntəqələrini bir-birinin ardınca düşməndən təmizləməyə başlayıb.Cəbhənin bütün istiqamətlərində olduğu kimi, Füzuli-Cəbrayıl istiqamətində də şiddətli döyüşlər davam edir. Ard-arda qələbə xəbərləri gəlir. Erməni silahlı birləşmələri Azərbaycan əsgərindən sarsıdıcı zərbələr alaraq canlı qüvvə və hərbi texnika sarıdan ağır tələfat verib geri çəkilir. Sevindirici haldır ki, qoşunlarımız irəliləyərək böyük strateji əhəmiyyət kəsb edən iri yaşayış məntəqələrini, ilk növbədə şəhərləri düşməndən təmizləyir.Nəhayət, çoxdan gözlənilən şad xəbər oktyabrın 4-də gəldi: Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Aşağı Qarabağda rayon mərkəzlərindən birinin - Cəbrayıl şəhərinin və rayonun bir neçə kəndinin düşmən tapdağından qurtulduğunu elan etdi. Azərbaycan əsgəri isə müqəddəs missiyasını hələki başa çatdırmayıb. İkinci Qarabağ müharibəsi davam edir. Erməniləri işğal olunmuş torpaqlardan tamamilə vurub çıxarmayınca bu savaş davam edəcəkdir.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə əsasında. Səhifəni hazırladı: Mələk Eyvazlı